# YERLİ ÖZÜNÜİDARƏ HAQQINDA **AVROPA XARTIYASI**




Avropa Şurası Yerli və Regional
Hakimiyyətlər Konqresi

The Congress
Le Congrès

COUNCIL OF EUROPE
CONSEIL DE L'EUROPE

# Yerli özünüidarə haqqında Avropa Xartiyası

English edition:
*European Charter of Local Self-Government*

Reproduction of the texts in this publication is authorised provided that the full title of the source, namely the Council of Europe, is cited. If they are intended to be used for commercial purposes or translated into one of the non-official languages of the Council of Europe, please contact publishing@coe.int.

Cover and layout: SPDP, Council of Europee
Photo : Council of Europe

© Council of Europe, January 2021
Printed at the Council of Europe

# Mündəricat

Avropa Şurası Yerli və Regional Hakimiyyətlər Konqresi ........................................................................ 5

Yerli özünüidarə haqqında Avropa Xartiyası ................ 9

Yerli özünüidarə orqanlarının Yerli hakimiyyətin işlərində iştirakı haqqında Avropa Xartiyasına Əlavə Protokol ........................................................... 23

Yerli özünüidarə haqqında Avropa Xartiyası – İzahedici məruzə ....................................................... 33

# Avropa Şurası Yerli və Regional Hakimiyyətlər Konqresi

## Giriş

Yerli və Regional Hakimiyyətlər Konqresi Avropa Şurasının 47 üzv dövlətindəki yerli və regional demokratiyanın vəziyyətinin qiymətləndirilməsindən məsul olan yeganə Avropa təsisatıdır. Onun əsas rolu yerli və regional demokratiyadakı irəliləyişləri gücləndirmək və onları monitorinq etməkdən ibarətdir.

Bu kontekstdə o, 1985-ci ildə qəbul edilmiş və məcburi hüquqi qüvvəyə malik ilk sənəd olan Yerli özünüidarə haqqında Avropa Xartiyasının üzv dövlətlər tərəfindən tətbiqinin monitorinqini aparır. Xartiya yerli və regional hakimiyyətlərin hüquqlarını qoruyan ən mühüm müqaviləyə çevrilmişdir. Bu hüquqlara özünüidarə hüququ, yerli qurumlarını seçmə hüququ, öz hakimiyyətlərini tətbiq etmə hüququ, inzibati strukturlara və maliyyə qaynaqlarına sahib olma hüququ və hökumətin digər strukturlarının müdaxiləsi halında məhkəməyə müraciət hüququ daxildir.

Fəaliyyət üsullarına təhlükə yaratdıqlarını düşündükləri vəziyyətlərlə üzləşən yerli və regional hakimiyyətlər Konqresə getdikcə daha çox müraciət edirlər. Bu vəziyyətlər müxtəlif xarakterlidir. Bunlara yerli və regional hakimiyyətlərlə birbaşa bağlı olan məsələ haqqında mərkəzi hökumətin onların fikrini almaması (Maddə 4.6 və 9.6) kimi

Xartiya müddəasının birbaşa pozulması ilə bağlı iddialar və ya maliyyə qaynaqlarının daşıdıqları məsuliyyətlərə müvafiq olmadığı hallar (Maddə 9) daxildir. Bu iddialar həmçinin Xartiyanın ruhunun dolayı yolla pozulması ilə də bağlı ola bilər. Məsələn, yerli hakimiyyətlərin nümayəndələri Xartiyanın ölkə tərəfindən ratifikasiyasından irəli gələn öhdəliklərə bu üzv dövlətin riayət edib-etməməsinə baxması üçün Konqresə müraciət edə bilərlər. Konqres həmçinin bələdiyyələrin sayının azaldılması yollarını araşdıra, parlament işçisinin seçki ilə vəzifə tutmasını qadağan edən qanunu və ya ölkənin paytaxtında rayon şuralarını ləğv edən qanun layihəsini şərh edə, və həmçinin yerli işlərdə milli azlığın dilindən istifadəyə qoyulmuş qadağa barədə müşahidələrini paylaşa bilər. Konqresin Xartiyanın icrası ilə bağlı öz rəyini verməsi istənilən məsələlər çox geniş sahəni əhatə edir.

Monitorinq fəaliyyətləri ilə Konqres Xartiyanın düzgün şəkildə icra edilməsini təmin edir və Avropada sağlam yerli və regional özünüidarənin saxlanılmasına yardım edir.

## Konqres yerli və regional demokratiyanı necə monitorinq edir?

Konqres:

- 47 üzv dövlətə monitorinq səfərləri təşkil edir;
- Xartiyanın xüsusi aspektlərini nəzərdən keçirir;
- Yerli və regional seçkiləri müşahidə edir.

Monitorinq səfərlərindən sonra Konqres Monitorinq Komitəsinin qəbul etdiyi məruzələri hazırlayır. Bu komitə

həmçinin Konqres tərəfindən qəbul edildikdən sonra üzv dövlətlərə göndərilən tövsiyələri təsdiq edir.

1995-ci ildən bəri Konqres tərəfindən təxminən 103 monitorinq məruzəsi qəbul edilib və üzv dövlətlər tərəfindən bir çox qanunvericilik islahatları aparılıb. Üzv dövlətlər eyni zamanda müqavilənin imzalanması zamanı Xartiyanın qəbul etmədikləri müddəalarını da ratifikasiya edə bilərlər. Onlar həmçinin yerli hakimiyyət orqanının işlərində iştirak etmək üçün Xartiyanın Əlavə Protokolunu imzalamaq və/ya ratifikasiya etmək üçün lazımi tədbirləri görə bilərlər.

## Təkmilləşdirilmiş monitorinq üçün gücləndirilmiş prosedurlar

2010-cu ildə islahatlar prosesinin bir hissəsi olaraq Konqres öz monitorinq prosedurlarının idarə edilməsilə bağlı qaydalar qəbul edib (Qətnamə 307 (2010)), 2013-cü ildə yenidən baxılıb (Qətnamə 307 (2010) REV2).

Monitorinqinin keyfiyyətini artırmaq məqsədilə Konqres aşağıdakılara qərar verdi:

- Xartiyanı imzalamış və ratifikasiya etmiş ölkələrdə daha mütəmadi və sistematik monitorinqlər aparmaq (təqribən hər beş ildən bir) və monitorinqdən məsul olan nümayəndə heyətinin tam qərəzsizliyini təmin etmək məqsədilə məruzəçilərin təyinat üçün ciddi və müfəssəl metod qəbul etmək;
- Nümayəndə heyətinin aşkarladığı problemlərin ən uyğun həll yollarını aidiyyatı olan ölkə ilə birgə irəli sürmək üçün bu prosesi dövlət hakimiyyət orqanları ilə siyasi dialoqa əsaslanan post-monitorinq

proseduru vasitələri ilə tamamlamaq və hökumətə təqdim edilmiş “yol xəritəsi”ndə Konqres tərəfindən göstərilmiş tövsiyələrin sürətli və səmərəli tətbiqini təmin etmək.

Beləcə, Konqres yerli və regional səviyyədə Avropa Şurasının Yerli özünüidarə haqqında Avropa Xartiyasına və yerli hakimiyyət orqanının işlərində iştirak etməklə bağlı onun Əlavə Protokoluna əsaslanaraq demokratiyanın gücləndirilməsi kimi fundamental hədəflərinə çatmağa yardım edir.

# Yerli özünüidarə haqqında Avropa Xartiyası

## Strasburq, 15 oktyabr 1985-ci il

Avropa Şurasının Yerli Özünüidarəetmə Haqqında Avropa Xartiyasının icazə verilmiş versiyaları Avropa Şurasının rəsmi dilləri olan ingiliscə və fransızca hazırlananlarıdır. Onlar Avropa Şurası Müqavilə Ofisinin internet səhifəsində mövcuddur. Avropa Şurasının qeyri-rəsmi dillərinə edilən tərcümələr konvensiyanın hər ölkənin milli parlamentində ratifikasiyası zamanı üzv dövlət tərəfindən həyata keçirilib. Avropa Şurasının Yerli və Regional Hakimiyyətlər Konqresi tərcümənin qeyri-rəsmi versiyalarının keyfiyyətilə bağlı heç bir məsuliyyət daşımır. Azərbaycan dilindəki versiya Yerli Özünüidarəetmə Haqqında Avropa Xartiyasının Azərbaycan tərəfindən 15 aprel 2002-ci ildə ratifikasiyası münasibətilə dövlət qurumları tərəfindən həyata keçirilib.

## Preambula

Avropa Şurasının üzvü olub, bu Xartiyanı imzalamış dövlətlər,

Avropa Şurasının məqsədinin ümumi sərvət sayılan ideal və prinsiplərin təntənəsi və qorunması naminə onun üzvləri arasında daha sıx birliyə nail olmaqdan ibarət olduğunu hesab edərək;

idarəetmə sahəsində sazişlər bağlanmasının bu məqsədə xidmət edən vasitələrdən biri olduğunu hesab edərək;

yerli özünüidarə orqanlarının istənilən demokratik quruluş əsaslarından birini təşkil etdiyini hesab edərək;

dövlət işlərinin idarə edilməsində vətəndaşların iştirakı hüququnun Avropa Şurasının üzvü olan bütün dövlətlər üçün ümumi sayılan demokratik prinsiplərə aid olduğunu hesab edərək;

real hakimiyyət verilmiş yerli özünüidarə orqanlarının mövcudluğunun səmərəli və eyni zamanda vətəndaşa yaxın idarəetməni təmin etməsi qənaətinə söykənərək;

Avropanın müxtəlif ölkələrində yerli özünüidarənin müdafiəsinin və möhkəmləndirilməsinin demokratiya və hakimiyyətin mərkəzləşdirilməsi prinsiplərinə əsaslanan Avropanın qurulmasına əhəmiyyətli töhfə olduğunu dərk edərək;

bunun, qərarlar qəbul etmək səlahiyyəti verilmiş, demokratik yolla yaradılmış orqanlara malik olan və öz səlahiyyəti, onun həyata keçirilməsi qaydası və bunun üçün zəruri olan vəsaitlər baxımından geniş muxtariyyətə malik olan

yerli özünüidarə orqanlarının mövcudluğunu nəzərdə tutduğunu təsdiq edərək;

aşağıdakılar barədə razılığa gəldilər:

### Maddə 1

Tərəflər aşağıdakı maddələrə bu Xartiyanın 12-ci maddəsində nəzərdə tutulmuş qaydada və həcmdə riayət etməyi öhdələrinə götürürlər.

## 1-ci hissə

### Maddə 2 – Yerli özünüidarənin konstitusiya və qanunvericilik əsasları

Yerli özünüidarə prinsipi ölkə qanunvericiliyində və imkan daxilində ölkənin konstitusiyasında təsbit olunmalıdır.

### Maddə 3 – Yerli özünüidarə anlayışı

1. Yerli özünüidarə dedikdə, yerli özünüidarə orqanlarının dövlət işlərinin xeyli hissəsini reqlamentləşdirmək və qanun çərçivəsində fəaliyyət göstərərək, məsuliyyəti öz üzərinə götürməklə onu yerli əhalinin maraqlarına uyğun idarə etmək hüququ və real qabiliyyəti başa düşülür.

2. Bu hüququ azad, gizli, bərabər, birbaşa və ümumi səsvermə yolu ilə seçilmiş üzvlərdən ibarət şuralar yaxud yığıncaqlar həyata keçirir. Şuraların yaxud yığıncaqların onlara hesabat verməli olan icra orqanları ola bilər. Bu müddəa, qanunla yol verilən yerlərdə vətəndaşların yığıncaqlarına, referenduma və ya vətəndaşların birbaşa

iştirakının hər hansı başqa formasına müraciət olunmasını istisna etmir.

## Maddə 4 – Yerli özünüidarənin səlahiyyət sahəsi

1. Yerli özünüidarə orqanlarının əsas səlahiyyətləri konstitusiya ilə yaxud qanunla müəyyən edilir. Lakin bu müddəa yerli özünüidarə orqanlarına qanuna müvafiq olaraq ayrı-ayrı konkret səlahiyyətlərin verilməsini istisna etmir.

2. Yerli özünüidarə orqanları onların səlahiyyətindən çıxarılmamış və başqa bir hakimiyyət orqanının səlahiyyətinə aid edilməmiş hər hansı məsələyə dair öz təşəbbüslərini həyata keçirmək üçün qanunla müəyyən edilmiş hüdudlarda tam sərbəstliyə malikdirlər.

3. Dövlət səlahiyyətlərinin həyata keçirilməsi, bir qayda olaraq, əsas etibarı ilə vətəndaşlara daha yaxın olan hakimiyyət orqanlarına həvalə edilməlidir. Bu səlahiyyətlərdən hər hansı birinin başqa bir hakimiyyət orqanına verilməsi qarşıya qoyulmuş vəzifənin həcmini və xarakterini, eləcə də səmərəlilik və qənaət tələblərini nəzərə almaqla həyata keçirilməlidir.

4. Yerli özünüidarə orqanlarına verilən səlahiyyətlər, bir qayda olaraq, tam və müstəsna olmalıdır. Onlar başqa bir hakimiyyət orqanı, mərkəzi və ya regional orqan tərəfindən yalnız qanunla müəyyən edilmiş hüdudlarda mübahisələndirilə yaxud məhdudlaşdırıla bilər.

5. Mərkəzi və regional orqanların səlahiyyətlərinin həvalə edilməsi zamanı yerli özünüidarə orqanları imkan daxilində

onların həyata keçirilməsini yerli şəraitə uyğunlaşdırmaq sərbəstliyinə malik olmalıdırlar.

6. Yerli özünüidarə orqanlarına bilavasitə aidiyyəti olan hər hansı qərarların planlaşdırılması və qəbulu prosesində bu orqanlarla məsləhətləşmək və bunu, imkan daxilində, qabaqcadan və müvafiq formada etmək zəruridir.

## Maddə 5 – Yerli özünüidarə orqanlarının ərazi hüdudlarının qorunması

Yerli ərazi hüdudlarının istənilən dəyişməsi zamanı müvafiq yerli özünüidarə orqanları ilə qabaqcadan məsləhətləşmək zəruridir, qanunun yol verdiyi hallarda bunu referendum keçirilməsi yolu ilə etmək olar.

## Maddə 6 – İnzibati strukturların və vasitələrin yerli özünüidarə orqanlarının vəzifələrinə uyğunluğu

1. Yerli hakimiyyət orqanları daha ümumi qanunvericilik müddəalarını pozmadan, yerli tələbata cavab verən və səmərəli idarəetməni təmin edən öz daxili inzibati strukturlarını özləri müəyyənləşdirmək hüququna malik olmalıdırlar.

2. Yerli özünüidarə orqanları qulluqçularının iş şəraiti elə olmalıdır ki, təcrübə və səriştəliliyin nəzərə alınması prinsiplərinə əsaslanan yüksək ixtisaslı kadrlar seçimini təmin etmək mümkün olsun; bundan ötrü peşə hazırlığının, əməyin ödənilməsinin və vəzifədə irəliçəkilmənin müvafiq şərtlərinin təmin edilməsi zəruridir.

## Maddə 7 – Yerli səviyyədə səlahiyyətlərin həyata keçirilməsi şərtləri

1. Yerli seçkili şəxslərin statusu onların səlahiyyətlərinin sərbəst həyata keçirilməsini təmin etməlidir.

2. Yerli seçkili şəxslərin statusu onların öz səlahiyyətlərini həyata keçirmələri ilə bağlı çəkdikləri xərclərin müvafiq pul kompensasiyasını, həmçinin zərurət olduqda, əldən çıxmış faydaya yaxud əmək haqqına görə kompensasiyanı və müvafiq sosial sığortanı almağa imkan verməlidir.

3. Yerli seçkili şəxsin mandatı ilə bir araya sığmayan istənilən funksiyalar və fəaliyyət yalnız qanunla yaxud əsas hüquqi prinsiplərlə müəyyənləşdirilə bilər.

## Maddə 8 – Yerli özünüidarə orqanlarının fəaliyyətinə inzibati nəzarət

1. Yerli özünüidarə orqanları üzərində istənilən inzibati nəzarət yalnız konstitusiya ilə yaxud qanunla nəzərdə tutulmuş formalarda və hallarda həyata keçirilə bilər.

2. Yerli özünüidarə orqanlarının fəaliyyətinə istənilən inzibati nəzarət, bir qayda olaraq, yalnız qanunçuluğa və konstitusiya prinsiplərinə riayət olunmasını təmin etmək üçün nəzərdə tutulmalıdır. Bununla belə, inzibati nəzarət həmçinin yerli özünüidarə orqanlarının onlara həvalə edilmiş səlahiyyətləri lazımi qaydada yerinə yetirmələri üzərində yuxarı hakimiyyət orqanlarının nəzarətini də ehtiva edə bilər.

3. Yerli özünüidarə orqanları üzərində inzibati nəzarət elə tərzdə həyata keçirilməlidir ki, nəzarət edən orqanın

müdaxilə dərəcəsi bu müdaxilənin qorumağı nəzərdə tutduğu maraqların əhəmiyyətinə mütənasib olsun.

## Maddə 9 – Yerli özünüidarə orqanlarının maliyyələşmə mənbələri

1. Yerli özünüidarə orqanlarının milli iqtisadi siyasət çərçivəsində kifayət qədər maliyyə vəsaitlərinə malik olmaq hüququ vardır, onlar öz funksiyalarını yerinə yetirmək üçün həmin vəsaitlər barədə sərbəst sərəncam verə bilərlər.

2. Yerli özünüidarə orqanlarının maliyyə vəsaitləri konstitusiya ilə yaxud qanunla onlara verilən səlahiyyətlərə mütənasib olmalıdır.

3. Yerli özünüidarə orqanlarının maliyyə vəsaitlərinin heç olmazsa bir hissəsi yerli rüsum və vergilər hesabına daxil olmalıdır, bunların dərəcələrini yerli özünüidarə orqanları qanunda göstərilən hüdudlarda müəyyənləşdirməyə ixtiyarlıdırlar.

4. Yerli özünüidarə orqanlarının maliyyə vəsaitlərinin əsaslandığı maliyyə sistemləri yetərincə müxtəlif və çevik olmalıdır ki, yerli orqanların səlahiyyətlərinin həyata keçirilməsi zamanı çəkilən xərclərin dəyişməsini mümkün qədər təmin edə bilsin.

5. Maliyyəsi baxımından daha zəif olan yerli özünüidarə orqanlarının qorunması maliyyə tənzimi prosedurlarının yaxud yerli orqanların potensial maliyyələşmə mənbələrinin qeyri-bərabər bölüşdürülməsinin nəticələrini və onlar üzərinə düşən xərcləri təshih etmək üçün nəzərdə tutulmuş ekvivalent tədbirlərin tətbiqini tələb edir. Belə prosedurlar və

ya tədbirlər yerli özünüidarə orqanlarının öz səlahiyyətləri hüdudlarında seçim sərbəstliyini məhdudlaşdırmamalıdır.

6. Yenidən bölüşdürülən vəsaitlərin verilmə qaydasını yerli özünüidarə orqanları ilə lazımi qaydada razılaşdırmaq zəruridir.

7. Yerli özünüidarə orqanlarına verilən subsidiyalar imkan daxilində müəyyən layihələrin maliyyələşdirilməsi üçün nəzərdə tutulmamalıdır. Subsidiyaların verilməsi yerli özünüidarə orqanlarının özlərinin səlahiyyətləri sahəsində siyasət seçimində əsas sərbəstliyinə ziyan vurmamalıdır.

8. Kapital qoyuluşları üzrə xərclərin maliyyələşdirilməsi üçün yerli özünüidarə orqanları qanunvericiliyə riayət etməklə milli borc kapital bazarından istifadə edə bilməlidir.

## Maddə 10 – Yerli özünüidarə orqanlarının birləşmək hüququ

1. Yerli özünüidarə orqanları öz səlahiyyətlərini həyata keçirərkən ümumi maraq doğuran vəzifələrin yerinə yetirilməsi üçün digər yerli özünüidarə orqanları ilə əməkdaşlıq etmək və qanunla müəyyənləşdirilmiş hüdudlarda onlarla birləşmək hüququna malikdirlər.

2. Hər bir dövlətdə yerli özünüidarə orqanlarının ümumi maraqlarının qorunması və inkişafı üçün onların birliklərə və yerli özünüidarə orqanlarının beynəlxalq birliklərinə daxil olmaq hüququ tanınmalıdır.

3. Yerli özünüidarə orqanlarına qanunla müəyyən edilə bilən şərtlər əsasında başqa dövlətlərin belə orqanları ilə əməkdaşlıq etmək hüququ verilir.

## Maddə 11 – Yerli özünüidarənin hüquqi müdafiəsi

Yerli özünüidarə orqanları özlərinin səlahiyyətlərinin və ölkə konstitusiyasında və qanunvericiliyində təsbit olunmuş yerli özünüidarə prinsiplərinə riayət edilməsinin sərbəst həyata keçirilməsini təmin etmək üçün məhkəmə müdafiəsi hüququna malik olmalıdırlar.

# 2-ci hissə – Xüsusi müddəalar

## Maddə 12 – Öhdəliklər

1. Hər bir Tərəf Xartiyanın 1 -ci hissəsinin ən azı iyirmi bəndinə riayət etməyi öhdəsinə götürür; onlardan ən azı on bənd aşağıdakı bəndlər arasından seçilməlidir:

- maddə 2
- maddə 3, 1-ci və 2-ci bəndlər
- maddə 4, 1-ci, 2-ci, 4-cü bəndlər
- maddə 5
- maddə 7, 1-ci bənd
- maddə 8, 2-ci bənd
- maddə 9, 1-ci, 2-ci və 3-cü bəndlər
- maddə 10, 1-ci bənd
- maddə 11.

2. Təsdiqnamənin yaxud Xartiyanı qəbuletmə və ya bəyənmə barədə sənədin saxlanılmaq üçün təhvil verildiyi vaxt razılığa gələn hər bir dövlət bu maddənin 1 -ci bəndinin müddəalarına uyğun olaraq seçdiyi bəndlər barədə Avropa Şurasının Baş katibinə bildiriş göndərir.

3. Gələcəkdə hər bir Tərəf istənilən vaxt Baş katibə bildiriş göndərə bilər ki, o, Xartiyanın, bu maddənin 1-ci bəndinin

müddəalarına uyğun olaraq hələ qəbul etmədiyi istənilən digər bəndinə riayət etməyi öhdəsinə götürür. Sonradan qəbul edilmiş bu cür öhdəliklər bildiriş göndərən Tərəfin ratifikasiya, qəbuletmə yaxud bəyənmə prosedurunun əsas hissəsi hesab edilir və bildirişi Baş katibin aldığı tarixdən üç aylıq müddət keçdikdən sonra gələn ayın birinci günü qüvvəyə minir.

## Maddə 13 – Xartiyanın qüvvəsi şamil edilən yerli özünüidarə orqanları

Bu Xartiyada təsbit olunmuş yerli özünüidarə prinsipləri Tərəflərin ərazilərində mövcud olan yerli özünüidarə orqanlarının bütün kateqoriyalarına şamil edilir. Lakin təsdiqnamənin yaxud qəbuletmə və ya bəyənmə haqqında sənədin saxlanılmaq üçün təhvil verilməsi zamanı hər bir Tərəf bu Xartiyanın tətbiqinin məhdudlaşdırıldığı yerli və ya regional özünüidarə orqanlarının kateqoriyalarını yaxud bu Xartiyanın tətbiq dairəsindən çıxarmaq niyyətində olduğu kateqoriyaları göstərə bilər. Tərəf həmçinin Avropa Şurasının Baş katibinə sonradan bildiriş göndərmək yolu ilə Xartiyanın qüvvəsini yerli və regional hakimiyyət orqanlarının digər kateqoriyalarına şamil edə bilər.

## Maddə 14 – İnformasiyanın verilməsi

Hər bir Tərəf özünün qanunvericilik müddəaları və bu Xartiyanın müddəalarına uyğunlaşdırma üçün gördüyü digər tədbirlər haqqında bütün zəruri informasiyanı Avropa Şurasının Baş katibinə göndərir.

## 3-cü hissə

### Maddə 15 – İmzalama, ratifikasiya, qüvvəyəminmə

1. Bu Xartiya Avropa Şurasının üzvü olan dövlətlərin imzalaması üçün açıqdır. Xartiya ratifikasiya edilməli, qəbul olunmalı yaxud bəyənilməlidir. Təsdiqnamələr yaxud qəbuletmə və ya bəyənmə haqqında sənədlər saxlanılmaq üçün Avropa Şurasının Baş katibinə təhvil verilir.

2. Bu Xartiya Avropa Şurasının üzvü olan dörd dövlətin bundan əvvəlki bəndin müddəalarına uyğun olaraq Xartiyaya riayət etməyə öz razılıqları barədə bəyanatları təqdim etməsi tarixindən üç aylıq müddətin keçməsindən sonra gələn ayın birinci günü qüvvəyə minir.

3. Gələcəkdə Xartiyaya qoşulmağa öz razılığını bildirmiş, Avropa Şurasının üzvü olan istənilən dövlət üçün Xartiya təsdiqnamənin, qəbuletmə və ya bəyənmə haqqında sənədin saxlanılmaq üçün təhvil verilməsindən sonra gələn ayın birinci günü qüvvəyə minəcək.

### Maddə 16 – Ərazi qeyd-şərti

1. Təsdiqnamə yaxud Xartiyanı qəbuletmə, bəyənmə və ya ona qoşulma barədə sənədi imzalayarkən və ya saxlanılmaq üçün təhvil verərkən hər bir dövlət bu Xartiyanın tətbiq ediləcəyi ərazini yaxud əraziləri göstərə bilər.

2. Hər bir dövlət gələcəkdə istənilən vaxt Avropa Şurasının Baş katibinə bəyannamə göndərməklə, bu Xartiyanın tətbiqini bəyannamədə göstərilmiş istənilən digər əraziyə şamil edə bilər. O əraziyə münasibətdə Xartiya Baş katibin

həmin bildirişi aldığı tarixdən üç aylıq müddət keçdikdən sonra gələn ayın birinci günü qüvvəyə minir.

## Maddə 17 – Etibarsız elanetmə

1. Tərəflərdən heç biri bu Xartiyanın onun üçün qüvvəyə mindiyi gündən beş illik müddət bitənədək Xartiyanı etibarsız elan edə bilməz. Altı ay öncədən Avropa Şurasının Baş katibinə ilkin bildiriş göndərilir. Bu cür etibarsız elanetmə Xartiyanın digər Tərəflər üçün qüvvəsinə təsir etmir, bir şərtlə ki, onların sayı heç vaxt dörddən az olmasın.

2. Əvvəlki bəndin müddəalarına uyğun olaraq Tərəflərdən hər biri Xartiyanın I hissəsinin əvvəllər özü tərəfindən qəbul edilmiş hər hansı bəndini etibarsız elan edə bilər, bir şərtlə ki, həmin Tərəfin riayət etməli olduğu bəndlərin sayı və kateqoriyaları 12-ci maddənin 1-ci bəndinin müddəalarına uyğun olsun. Bəndlərdən birinin etibarsız elan edilməsindən sonra 12-ci maddənin 1-ci bəndinin tələblərinə artıq uyğun gəlməyən hər bir Tərəf həmçinin Xartiyanı bütövlükdə etibarsız elan etmiş sayılacaqdır.

## Maddə 18 – Bildirişlər

Avropa Şurasının Baş katibi Şuranın üzvü olan dövlətlərə aşağıdakılar barədə bildirişlər göndərir:

a. hər hansı imzalanma;

b. hər hansı təsdiqnamənin yaxud qəbuletmə və ya bəyənmə haqqında sənədin saxlanılmaq üçün təhvil verilməsi;

c. 15-ci maddəyə uyğun olaraq bu Xartiyanın hər hansı qüvvəyəminmə tarixi;

d. 12-ci maddənin 2-ci və 3-cü bəndlərinin müddəalarına uyğun olaraq alınmış istənilən bildiriş;

e. 13-cü maddənin müddəalarına uyğun olaraq alınmış istənilən bildiriş;

f. bu Xartiyaya aidiyyəti olan hər hansı başqa akt, bildiriş və ya məlumat.

Bunun təsdiqi olaraq, lazımi qaydada vəkil edilmiş aşağıda imza edənlər bu Xartiyanı imzalamışlar.

Strasburqda, 1985-ci il oktyabrın 15-də fransız və ingilis dillərində, hər iki mətni eyni qüvvəyə malik olan bir nüsxədə imzalanmışdır, həmin nüsxə saxlanılmaq üçün Avropa Şurasının arxivinə təhvil veriləcəkdir.

Avropa Şurasının Baş katibi lazımi qaydada təsdiq edilmiş surətləri Avropa Şurasının üzvü olan dövlətlərin hər birinə göndərir.

# Yerli özünüidarə orqanlarının Yerli hakimiyyətin işlərində iştirakı haqqında Avropa Xartiyasına Əlavə Protokol

**Utrext, 16.XI.2009**

## Preambula

Avropa Şurasının üzv dövlətləri, Yerli özünüidarə haqqında Avropa Xartiyasına bu Əlavə Protokolu imzalayan tərəflər (bundan sonra “Xartiya” adlandırılacaqETS No.122),

Avropa Şurasının məqsədinin ümumi sərvət sayılan ideal və prinsiplərin təntənəsi və qorunması naminə onun üzvləri arasında daha sıx birliyə nail olmaqdan ibarət olduğunu hesab edərək;

dövlət işlərinin idarə edilməsində vətəndaşların iştirakı hüququnun Avropa Şurasının üzvü olan bütün dövlətlər üçün ümumi sayılan demokratik prinsiplərə aid olduğunu hesab edərək;

üzv dövlətlərdə inkişafın yerli özünüidarə üçün bu prinsipin ən üstün əhəmiyyətini əks etdirdiyini hesab edərək;

yerli özünüidarə orqanlarının işlərində iştirak etmək hüququna zəmanət verən şərtləri Xartiyaya əlavə etməyin müvafiq olduğunu hesab edərək;

27 noyabr 2008-ci ildə Nazirlər Komitəsi tərəfindən qəbul edilmiş rəsmi sənədlərə cıxış üzrə Avropa Şurası Konvensiyasını nəzərdə tutaraq;

Avropa Şurası dövlət və hökumət başçılarının 3-cü zirvə toplantısında (Varşava, 16-17 may 2005-ci il) qəbul olunmuş Bəyannaməni və Fəaliyyət Planını nəzərdə tutaraq;

aşağıdakılar barədə razılığa gəldilər:

## Maddə 1 – Yerli səviyyədə özünüidarəçilik işlərində iştirak etmək hüququ

1. Üzv dövlətlər hər bir kəsin yerli özünüidarə işlərində iştirak etmək hüququnu öz yurisdiksiyaları çərçivəsində təmin edəcəklər.

2. Yerli özünüidarə işlərində iştirak etmək hüququ yerli hakimiyyətin səlahiyyət və öhdəliklərinin icrasını müəyyən etmək və ya ona təsir etmək hüququnu ifadə edir.

3. Qanun bu hüququn icrasını asanlaşdiran vasitələri təmin edəcək. Qanun kimliyindən və hansı qrupa mənsub olmasından asılı olmayaraq, ayrı-seçkiliyə yol vermədən şəxslərin müxtəlif vəziyyətləri və ya kateqoriyalarına müvafiq səciyyəvi tədbirlər təmin edə bilər. Tərəfin konstitusiya və ya beynəlxaq öhdəliklərinə müvafiq olaraq qanun xüsusilə seçicilər üçün nəzərdə tutulmuş tədbirləri təmin edə bilər.

4.1. Hər bir Tərəf qanunla öz vətəndaşlarının yaşadıqları ərazidə yerli özünüidarə orqanlarının şura və ya assambleyası üzvlərinin seçkisində seçici və ya namizəd qismində iştirakını tanıyır.

4.2. Qanun həmçinin Tərəf öz konstitutsiya müddəalarında və ya beynəlxalq hüquqi öhdəliklərində bu haqda gəldiyi qərara müvafiq olaraq başqa şəxslərin də iştirak hüququnu tanıyacaq.

5.1. Yerli özünüidarəçilik işlərində iştirak etmək hüququnun icrasında istənilən rəsmiyyətlər, şərtlər və ya məhdudiyyətlər qanuna müvafiq təyin edilməli və Tərəfin beynəlxalq hüquqi öhdəliklərinə uyğun olmalıdır.

5.2. Qanun yerli özünüidarə orqanlarının səlahiyyətlərinin icrasının etik tamlığının və şəffaflığının iştirak hüququnu təhlükə altına salmamasını təmin etmək üçün zəruri rəsmiyyətləri, şərtləri və məhdudiyyətləri müəyyən edir.

5.3. İstənilən digər rəsmiyyətlər və ya məhdudiyyətlər səmərəli siyasi demokratiyanın fəaliyyəti, demokratik cəmiyyətdə ictimai təhlükəsizliyin təminatı və ya Tərəfin beynəlxalq hüquqi öhdəliklərinin tələblərinə riayət etməsi üçün zəruri olmalıdırlar.

**Maddə 2 – İştirak hüququnun həyata keçirilməsi üçün tədbirlər**

1. Tərəflər yerli özünüidarəçilik işlərində iştirak etmək hüququnun daha səmərəli həyata keçirilməsi üçün bütün zəruri tədbirləri görür.

2. İştirak etmək hüququnun icrası üçün bu tədbirlər özündə aşağıdakıları ehtiva edir:

   i. bu Protokolda müəyyən olunan iştirak etmək hüquüqunun icrasına imkan vermək, təşviq etmək və asanlaşdırmaq üçün yerli özünüidarə orqanlarına səlahiyyət vermək;

   ii. səmərəli tərtib etmək:

      a. məsləhət prosedurlarını, yerli referendumlar və petisiyaları özündə birləşdirən əhalinin iştirak etmə prosedurunun və yerli özünüidarənin çox əhaliyə malik olduğu və ya coğrafi cəhətdən geniş ərazi əhatə etdiyi

təqdirdə əhalinin özünə yaxın yerlərdə iştirak etməsi üçün tədbirləri;

b. Tərəfin konstitusiya qaydasına və beynəlxalq hüquqi öhdəliklərinə müvafiq olaraq yerli özünüidarə orqanları tərəfindən saxlanılan rəsmi sənədlərə çıxış proseduralarını;

c. iştirak edərkən xüsusi maneələr ilə üzləşən şəxslərin kateqoriyalarının ehtiyaclarını nəzərə alaraq görülən tədbirləri; və

d. yerli özünüidarə orqanları və yerli dövlət qulluğunun fəaliyyətində şikayətlərə və təkliflərə dair tədbir görən və cavab verən mexanizm və proseduraları;

III. Bu Protokolda müəyyən olunan iştirak etmək hüququnun təşviq edilməsi və icrasında informasiya və kommunikasiya texnologiyalarının istifadəsinin təşviq edilməsi.

3. Yerli özünüidarə orqanlarının ölçülərinə və səlahiyyətlərinə uyğun olarag müxtəlif kateqoriyalar üçün bu prosedurlar, tədbirlər və mexanizmlər fərqli ola bilərlər.

4. Yerli özünüidarə orqanlarının işlərində iştirak etmək hüququnu səmərəli həyata keçirmək məqsədi ilə planlaşdirma və qərarvermə prosesində müvafiq tədbirlər gorulməsi üçün yerli özünüidarə orqanlarından imkan daxilində və münasib yolla vaxtinda məsləhət alınmalıdır.

## Maddə 3 – Protokolun tətbiq edildiyi yerli özünüidarə orqanları

Bu Protokol Tərəfin ərazilərində mövcud olan yerli özünüidarə orqanlarının bütün kateqoriyalarına şamil edilir. Lakin təsdiqnamənin yaxud qəbuletmə və ya bəyənmə haqqında sənədin saxlanılmaq üçün təhvil verilməsi zamanı hər bir Tərəf bu Protokolun tətbiqinin məhdudlaşdırıldığı yerli və regional özünüidarə orqanlarının kateqoriyalarını yaxud bu protokolun tətbiqi dairəsindən çıxarmaq niyyətində olduğu kateqoriyaları göstərə bilər. Tərəf həmçinin Avropa Şurasının Baş katibinə sonradan bildiriş göndərmək yolu ilə Protokolun qüvvəsini yerli və ya regional hakimiyyət orqanlarının digər kateqoriyalarına şamil edə bilər.

## Maddə 4 – Ərazi tətbiqi

1. İstənilən Dövlət imza və ya ratifikasiya, qəbul və ya təsdiqetmə zamanı bu Protokolun tətbiq olunacağı ərazi və əraziləri müəyyən edə bilər.

2. İstənilən Tərəf, istənilən sonrakı tarixdə, Avropa Şurasının Baş katibinə ünvanlanan bəyannamə vasitəsilə bu Protokolun bəyannamədə müəyyən olunan hər hansı digər əraziyə tətbiqini genişləndirə bilər. Belə ərazi baxımından Protokol bəyənnaməni Baş katibin aldığı tarixindən üç aylıq müddət keçdikdən sonra gələn ayın birinci günü qüvvəyə minir

3. Əvvəlki iki paraqraf çərçivəsində edilmiş hər hansı bir bəyanat, belə bəyanatda göstərilmiş hər hansı əraziyə münasibətdə, Avropa Şurasının Baş katibinə bildiriş göndərməklə geri götürülə bilər Avropa Şurasının

Geri götürmə Baş katib tərəfindən belə bildirişin qəbulu tarixindən sonrakı altı aylıq müddətinbitməsindən sonrakı ayın birinci günündə qüvvəyə minir.

## Maddə 5 – İmzalanma və qüvvəyəminmə

1. Bu Protokol Avropa Şurasının Xartiyanı imzalayan üzv dövlətlərinə imza üçün açıqdır. Bu Protokol təsdiq edilməli, qəbul olunmalı və ya bəyənilməlidir. Avropa Şurasının üzv dövləti Xartiyanı eyni zamanda və ya əvvəlcədən təsdiqlənmədən, qəbul etmədən və ya bəyənmədən bu Protokolu təsdiqləyə, gəbul edə və ya bəyənə bilməz. Təsdiqnamələr, qəbuletmə və ya bəyənmə haqqında sənədlər saxlanılmaq üçün Avropa Şurasının Baş katibinə təhvil verilir.

2. Bu Protokol Avropa Şurasının üzvü olan səkkiz dövlətin 1-ci paraqrafın müddəalarına müvafiq olaraq protokola riayət etməyə öz razılıqları barədə bəyənatları təqdim etməsi tarixindən üç aylıq müddətin keçməsindən sonra gələn ayın birinci günü qüvvəyə minir.

3. Gələcəkdə Protokola qoşulmağa öz razılığını bildirəcək istənilən üzv dövlət üçün bu Protokol təsdiqnamənin, qəbuletmə və ya bəyənmə haqqında sənədin saxlanılmaq üçün təhvil verilməsindən üç aylıq müddətin keçməsindən sonra gələn ayın birinci günü qüvvəyə miniəcək.

## Maddə 6 – Etibarsız elanetmə

1. Hər bir Tərəf istənilən zaman Avropa Şurasınn Baş katibinə bildiriş göndərərək Protokolu etibarsız elan edə bilər.

2. Bu cür etibarsız elanetmə Baş katibin bildirişi qəbul etməsindən altı aylıq muddətin keçməsindən sonra gələn ayın birinci günü qüvvəyə minəcək.

**Maddə 7 – Bildirişlər**

Avropa Şurasınn Baş katibi Şuranın üzvü olan dövlətlərə aşağıdakılar barədə bildirişlər göndərir:

a. hər hansı imzalanma ;

b. hər hansı təsdiqnamənin yaxud qəbuletmə və ya bəyənmə haqqında sənədin saxlanılmaq üçün təhvil verilməsi;

c. 5-ci maddəyə uyğun olaraq bu Protokolun hər hansı quvvəyə minmə tarixi;

d. 3-cü maddənin müddəalarına uyğun olaraq alınmış istənilən bildiriş;

e. bu Protokola aidiyyəti olan hər hansı başqa akt, bildiriş və ya məlumat.

Bunun təsdiqi olaraq, lazımi qaydada səlahiyyətləndirilmiş aşağıda imza edənlər bu Protokolu imzalayıblar;.

Utrextdə 2009-cu il noyabrın 16-da fransız və ingilis dillərində, hər iki mətni eyni qüvvəyə malik olan bir nüsxədə imzalanmışdır, həmin nüsxə saxlanılmaq üçün Avropa Şurasının arxivinə təhvil veriləcəkdir. Avropa Şurasının Baş katibi lazımi qaydada təsdiq edilmiş surətləri Avropa Şurasının üzvü olan dövlətlərin hər birinə göndərir.

# Yerli özünüidarə haqqında Avropa Xartiyası

## İzahedici məruzə

I. Yerli özünüidarə haqqındaAvropa Xartiyası Avropa Şurasında Regional və Bələdiyyə məsələləri üzrə İcraçı Komitənin rəhbərliyi altında və Avropa Yerli və Regional Hakimiyyət Orqanları üzrə daimi konfransın təqdim etdiyi layihə əsasında hökumətlərarası ekspertlərdən ibarət komitə tərəfindən hazırlanmışdır. O, 15 oktyabr 1985-ci ildə Avropa Şurasının üzv dövlətləri tərəfindən konvensiya kimi imzalanmaq üçün açılmışdır.

II. Adı gedən komitənin müzakirələrinə əsaslanaraq hazırlanmış və Avropa Şurasının Nazirlər Komitəsinə göndərilmiş izahedici məruzənin mətni Xartiyanın mətninin autentik interpretasiyası vasitəsi olmasa da orada olan müddəaların başa düşülməsini asanlaşdırır.

III. Yerli özünüidarə haqqında Avropa Xartiyasının mətni də bu nəşrdə çap edilib.

# İzahedici məruzə

## A. Xartiyanın tarixcəsi

Yerli özünüidarə haqqında Avropa Xartiyası Avropa Şurasında uzun illər göstərilmiş çoxsaylı təşəbbüslərin və aparılmış müzakirələrin kulminasiya nöqtəsidir.

Avropada yerli özünüidarənin Avropanın bütün demokratik dövlətləri tərəfindən tanınan prinsipləri bəyan edən sənəd vasitəsilə qorunması və möhkəmləndirilməsi yerli özünüidarə orqanlarının uzun zamandan bəri mövcud olan arzusudur. İlk zamanlardan bu mətnin yerli özünüidarənin qorunmasında əsas rolu oynamışlar, yəni hökumətlər tərəfindən qəbul edilməli olunması qeyd edildi.

Avropa Şurasının insan hüquqlarının müdafiəçisi və demokratiya prinsiplərinin carçısı kimi bu sənədin hazırlanması və qəbul edilməsi üçün ideal qurum olması göz qabağında idi. Üstəlik, 1957-ci ildən bəri o, yerli özünüidarə orqanlarının əhəmiyyətini qəbul etmiş və onlar üçün Avropa səviyyəsində təmsilçi orqan olan Avropa Yerli və Regional Hakimiyyətlərin Daimi Konfransı (AYRHDK) təsis etmişdir.(*).

Məhz AYRHDK yerli özünüidarənin prinsipləri üzrə Bəyannaməni özünün 64 (1968) saylı Qətnaməsində təklif etdi və Avropa Şurasının Nazirlər Komitəsini onu qəbul etməyə dəvət etdi. Bu təşəbbüs Məşvərət Məclisi tərəfindən dəstəkləndi və 615 (1970) saylı Qətnaməsi ilə o, Nazirlər Komitəsinə AYRHDK-ya çox bənzəyən və iki orqan tərəfindən birgə hazırlanmış mətni təqdim etdi. Amma təklif edilmiş bəyannamə ümumi və sadə xarakter

daşıdığı üçün dəqiq fəaliyyətlərin onun əsasında görülə bilməsi üçün yetərli deyildi.

AYRHDK tərəfindən 1981-ci ildə həyata keçirilmiş təşəbbüs daha münasib yanaşmaya sahib idi. Lakin, yerli özünüidarənin əhəmiyyəti və onun üzləşdiyi təhlükələrin təbiətini nəzərə aldıqda məcburi olmayan prinsiplərin sadə bəyannaməsinin kifayət etmədiyi qeyd edildi. Əksinə hökumətlər üzərlərinə məcburi xarakter daşıyan öhdəliklər almağa dəvət edilməli idilər. Konstitusiya müddəaları və milli inzibati ənənələr arasındakı fərqləri nəzərə almaq üçün lazım olan element yeni sənədin qoyduğu şərtlərin həddən artıq yumşaldılması ilə deyil hökumətlərə özlərini bağlı hiss etdikləri müddəalarla əlaqədar müəyyən sərbəstlik verərək daxil edilməli idi.

Bu yanaşmanın məntiqi nəticəsi olaraq Nazirlər Komitəsinə AYRHDK-nın 126 (1981) saylı Qətnaməsi ilə birgə Avropa Konvensiyası kimi qəbul etmək təklifi ilə Yerli özünüidarənin Avropa Xartiyası layihəsi təqdim edildi.

Nazirlər Komitəsi AYRHDK-nın təkliflərini Yerli özünüidarə orqanlarından məsul olan Avropalı nazirlərin 5-ci Konfransında müzakirə edilmələri üçün Regional və Bələdiyyə Məsələləri üzrə İcraçı Komitəyə (RBMİK) göndərildi. Gəldikləri nəticələrdə Luqanoda toplanan nazirlər

> "...Xartiyanın məcburi konvensiya şəklində olmasının vacibliyi və Xartiyanın məzmununun bəzi aspektləri ilə bağlı bəzi nazirlərin ifadə etdikləri fikirləri qeyd edərək bu xartiya layihəsinin yerli özünüidarənin prinsiplərinin müəyyən edilməsi istiqamətində əhəmiyyətli addım olduğunu hesab edirlər;

> Avropa Şurasının Nazirlər Komitəsindən Regional və Bələdiyyə Məsələləri üzrə İcraçı Komitəyə (RBMİK) Avropa Yerli və Regional Hakimiyyətlər Konfransı ilə birgə konfrans zamanı şəkli və məzmunu ilə bağlı təqdim edilmiş müşahidələri nəzərə alaraq onların gələcək konfransında təsdiq edilməyə göndərilməsi məqsədilə "Yerli özünüidarə ilə bağlı" Avropa Xartiyası layihəsinə lazımi düzəlişləri etməsini tapşırmağı xahiş edir.

Beləcə, Nazirlər Komitəsi Xartiya layihəsini dərindən nəzərdən keçirən AYRHDK-ya səlahiyyət verdi. Luqano Konfransının nəticələrinə uyğun olaraq AYRHDK-nın nümayəndələri müzakirələrdə iştirak etdilər.

AYRHDK tərəfindən nəzərdən keçirilmiş Xartiya layihəsinin mətni beləcə Yerli özünüidarə orqanlarından məsul olan avropalı nazirlərin 1984-cü ilin 6-8 noyabrında Romada keçirilmiş 6-cı Konfransı zamanı təqdim edildi. Bu mətni nəzərdən keçirdikdən sonra nazirlər orada bildirilən prinsiplər barədə konsensusa gəldiklərini yekdilliklə ifadə etdilər Xartiyanın daşıyacağı hüququ formaya gəlincə nazirlərin əksəriyyəti konvensiyanın leyhinə olduqlarını bəyan etdi.

Məşvərətçi Məclis və Romadakı nazirlər konfransının ifadə etdiyi fikirləri nəzərə alaraq Nazirlər Komitəsi 1985-ci ilin iyun ayında "Yerli özünüidarə haqqında" Avropa Xartiyasını konvensiya şəklində qəbul etdi. Xartiya təşəbbüsü ilk dəfə AYRHDK tərəfindən irəli sürüldüyü üçün konvensiyanın 15 oktyabr 1985-ci ildə AYRHDK-nın 20-ci plenar sessiyası münasibətilə imzalanmaq üçün açıq olacağı qərarına gəlindi.

## B. Ümumi qeydlər

Yerli özünüidarə haqqında Avropa Xartiyasının məqsədi vətəndaşa ən yaxın olan və ona gündəlik həyatı ilə bağlı qərarların qəbulunda effektiv şəkildə iştirak etmək fürsəti verən yerli özünüidarə orqanlarının hüquqlarını ölçmək və qorunmasında ümumi Avropa standartlarının olmamasını kompensasiya etməkdir.

Xartiya Tərəfləri yerli özünüidarə orqanlarının siyasi, inzibati və maliyyə müstəqilliklərini təmin edən əsas qaydaları tətbiq etməyə məcbur edir. Bu, ərazi idarəetməsinin bütün səviyyələrində Avropa Şurasının yarandığı andan bəri müdafiə etdiyi prinsiplərə məna verməyin siyasi iradəsinin Avropa səviyyəsində təzahürüdür. Avropa Şurası məqsədi Avropanın demokratik vicdanını yaşatmaq və insan hüquqlarını sözün geniş mənasında müdafiə etməkdir. Xartiya yerli özünüidarə orqanlarının sahib olduqları özünüidarə dərəcəsinin əsl demokratiyanın yolunda əngəl ola biləcəyi düşüncəsini özündə təcəssüm etdirir.

Xartiya üç hissədən ibarətdir. Birinci hissə yerli özünüidarənin prinsiplərini bəyan edən əsas müddəalardan təşkil olunub. O, yerli özünüidarə üçün konstiusional və hüquqi əsasın olmasını dəqiqləşdirir, yerli özünüidarə orqanlarının səlahiyyətlərinin anlayışını müəyyən edir və onların təbiəti və əhatə dairəsini idarə edən prinsipləri təyin edir. Digər maddələr yerli özünüidarə orqanlarının ərazi hüdudlarını mühafizə etmək, onlara inzibati strukturları və şəxsləri işə almaq imkanı baxımından özünüidarəni təmin etmək və yerli seçici mandatının icrasının şərtlərini müəyyən etməklə bağlıdır. İki vacib maddə yerli özünüidarə orqanlarının aktlarına inzibati nəzarəti məhdudlaşdırmaq və mühüm

xarakter daşıyan muxtariyyətlərinə zərər verməyəcək şərtlərdə onlara yetərli maliyyə qaynaqlarını təmin etmək məqsədini daşıyır. Bu hissənin digər müddəaları yerli özünüidarə orqanlarının əməkdaşlıq etmək və dərnəklər qurmaq üçün sahib olduqları hüquqları və məhkəməyə müraciət edərək yerli özünüidarənin mühafizəsi ilə bağlıdır.

İkinci hissədə Tərəflərin üzərlərinə aldıqları öhdəliklərin əhəmiyyətindən bəhs edən müddəalar mövcuddur. Hər bir üzv dövlətin hüquqi və institusional xüsusiyyətləri qarşısında əsas prinsiplərin qorunması və lazımi sərbəstlik arasında gerçək tarazlığı təmin etmək üçün o, Tərəflərə Xartiyanın bəzi müddəalarını onların bağlı olduqlarını hesab etdikləri müddəalar arasından çıxarmağa icazə verir. Burada söhbət bir tərəfdən hökuməti əsas narahat edən məsələ olan yerli özünüidarənin dövlətin özünün strukturu və təşkilatı ilə aidiyyəti olması faktının tanınması və digər tərəfdən də demokratik olan istənilən yerli özünüidarə orqanının riayət etməli olduğu minimum əsas prinsiplərin mühafizəsi məqsədi arasında kompromisdən gedir. Üstəlik, Tərəflərin öhdəlikləri maneələr aradan qalxdıqdan sonra genişləndirilə bilər.

Xartiyada bildirilən yerli özünüidarə prinsipləri həmçinin hər bir üzv dövlətin yerli özünüidarə orqanlarının bütün səviyyə və kateqoriyalarına və lazımi dəyişikliklər edildikdən sonra regional səviyyədə ərazi hakimiyyət orqanlarına da tətbiq edilir. Bütün hallarda xüsusi vəziyyətləri nəzərə almaq üçün Tərəflərə bəzi yerli özünüidarə orqanlarını Xartiyanın tətbiq sahəsindən kənarlaşdırmaq icazələri var

Tərəflərə qanunvericilik müddəalarının və Xartiyanın müddəalarının tətbiqi ilə əlaqədar görülmüş tədbirlər

haqqında bütün məlumatları vermək məcburiyyətindən başqa Xartiya özünün tətbiqi ilə bağlı nəzarət üçün instusionallaşmış sistem nəzərdə tutmur. Avropa Sosial Xartiyasının sisteminə bənzər beynəlxalq nəzarət sisteminin yaradılması haqqında bəhs edilmişdi. Amma, qəliz nəzarət sistemi olmadan da fəaliyyətin mümkün olduğu bildirildi. Çünki Nazirlər Komitəsinə birbaşa çıxışı olan AYRHK-nın Avropa Şurasında mövcudluğu Tərəflərin Xartiyaya əsasən üzərlərinə aldıqları öhdəliklərə riayət etmələrinə nəzarəti həyata keçirə bilərdi.

Mətnin son hissəsi adətən Avropa Şurasının rəhbərliyi ilə hazırlanmış konvensiyalardakı müddəalara bənzəyən son müddəalardan ibarətdir.

Yerli özünüidarə haqqında Avropa Xartiyası Avropa Şurasının müdafiə və inkişaf etdirməyi qarşısına məqsəd qoyduğu demokratiyanın sütünlarından biri olan yerli özünüidarənin prinsiplərini müəyyən edən və qoruyan ilk çoxtərəfli hüquqi sənəddir. Birgə Avropa dəyərlərinin qorunması və möhkəmləndirilməsinə töhfə verəcəyinə ümid edirik.

## C. Xartiyanın müddəalarının şərhi

*Preambula*

Preambula Xartiyanın əsaslandığı əsas prinsipləri sadalayır. Bu prinsiplər əsasən aşağıdakılardır:

- yerli özünüidarənin demokratiyaya, səmərəli idarəetməyə və hakimiyyətin desantralizasiyasına verdiyi mühüm töhfə;

- yerli özünüidarə orqanlarının Avropanın quruculuğundakı vacib rolu;
- yerli özünüidarə orqanlarının demokratik statusa sahib olmasının və daha geniş muxtariyyətdən yararlanmasının vacibliyi.

*Maddə 1*

Maddə 1 Tərəflərin yerli özünüidarənin Xartiyanın 1-ci hissəsində (maddə 2-11) qeyd edilmiş prinsiplərinə maddə 12-də nəzərdə tutulmuş ölçüdə riayət etməklə bağlı ümumi öhdəliyindən bəhs edir.

*Maddə 2*

Bu maddə yerli özünüidarə prinsipinin qanunvericilik aktlarında təsbit edilməsini söyləyir.

Bu prinsipin əhəmiyyətini nəzərə alaraq onun həm də dövlətin təşkilini idarə edən əsas sənədə yəni Konstitusiyaya daxil edilməsi arzu ediləndir. Lakin, Konstitusiyaya düzəliş prosedurunun Parlamentin xüsusi əksəriyyətinin və ya referendum yolu ilə fikrini ifadə edən bütün əhalinin təsdiqini gərəkdirən ölkələrdə özünüidarə prinsipini Konstitusiya ilə təsbit etməyin mümkün olmayacağı faktı qəbul edildi. Yazılı konstitusiyası olmayan amma müxtəlif sənəd və qaynaqlarda konstitusiya xarakteri daşıyan müddəalara sahib ölkələrin də bu öhdəliyi üzərlərinə almaqda xüsusi çətinlik çəkəcəkləri və hətta bunun qeyri-mümkün olacağı faktı vurğulandı.

Federal strukturlu ölkələrdə yerli hakimiyyət orqanlarının federasiyanın mərkəzi hökumətindən daha çox federativ dövlətlər tərəfindən tənzimlənə biləcəyi faktını da nəzərə

almaq lazımdır. Bu Xartiya federal dövlətlərə gəlincə heç bir halda federal dövlət və federativ dövlətlər arasında səlahiyyət bölgüsünə təsir etmir.

*Maddə 3*

Bu maddə yerli özünüidarənin Xartiyada nəzərdə tutulmalı olan əsas xüsusiyyətlərini müəyyən edir.

*1-ci bənd*

"Effektiv səlahiyyət" anlayışı bəzi dövlət işlərinin həll və idarə edilməsinin formal hüququnun onun səmərəli şəkildə icra edilməsi üçün vasitələrə sahib olmasını özündə ehtiva edir. "Qanun çərçivəsində" ifadəsinin daxil edilməsi bu qanunun və səlahiyyətin qanunverici orqan tərəfindən daha yaxından müəyyən edilə biləcəyi faktını qəbul edir.

"Məsuliyyəti öz üzərinə götürməklə" cümləsi yerli özünüidarə orqanlarının rolunun sadəcə yüksək hakimiyyət orqanlarının sadə qurumları qismində görülməməli olmasını vurğulayır.

Yerli özünüidarə orqanlarının həll və idarə etmək üçün səlahiyyətli olmalı olduqları işləri dəqiqliklə müəyyən etmək mümkün deyil. "Yerli işlər" və "onların öz işləri" kimi anlaşılmaz və şərhi çətin hesab edilən ifadələr qəbul edilməmişdir. Yerli özünüidarə orqanlarının səlahiyyətlərinə daxil olan işlər barəsində üzv dövlətlərin ənənələri bir-birlərindən çox fərqlənir. Əslində isə işlərin əksəriyyəti həm yerli həm də milli əhəmiyyət daşıyır. Bu sahədəki məsuliyyətlər ölkələrdən və dövrlərdən asılı olaraq dəyişə və hətta müxtəlif hökumət səviyyələrində bölüşdürülə bilər. Yerli özünüidarə orqanlarını daha geniş təsir olmayan işlərlə məhdudlaşdıraraq onları ikinci dərəcəli rol vermək

riski mövcuddur. Amma mərkəzi hökumətin əlində milli müdafiə kimi bəzi funksiyaları saxlamaqla bağlı ölkələrin arzusu qəbul edilir. Xartiyanın məqsədi yerli özünüidarə orqanlarına yerli səviyyədə icra edilmək üçün geniş ölçülü səlahiyyətlərin verilməsidir. Bu səlahiyyətlər maddə 4-də müəyyən edilmişdir.

*2-ci bənd*

Yerli özünüidarə sahəsindəki hüquqlar demokratik şəkildə təşkil edilmiş orqanlar tərəfindən icra edilməlidir. Bu prinsip Avropa Şurasının hakimiyyətin demokratik formalarına verdiyi böyük əhəmiyyətlə uyğunluq təşkil edir.

Bu hüquq normal olaraq təmsilçi yığıncaqlardan və onlara hesabat verməli olan və ya olmayan icra orqanlarının mövcudluğundan bəhs edir. Amma birbaşa demokratiyanın formalarının olması qanunla nəzərdə tutulan yerlərdə mümkündür.

*Maddə 4*

Maddə 3-lə bağlı şərhlərdə izah edildiyi kimi bütün Avropada yerli özünüidarə orqanlarına verilməli olan səlahiyyətləri tam şəkildə sadalamaq həm qeyri-mümkündür həm də düzgün olmazdı. Lakin, bu maddə yerli özünüidarə orqanlarının səlahiyyətlərinin əsaslanmalı olduğu ümumi prinsiplərdən və onların səlahiyyətlərinin təbiətindən bəhs edir.

*1-ci bənd*

Yerli özünüidarə orqanlarının səlahiyyətlərinin təbiəti yerli özünüidarə orqanlarının fəaliyyəti üçün əsas olduğundan elementar səlahiyyətlərin onlara ad hoc şəkildə verilməyib əksinə qanunvericilklə yetərincə möhkəmləndirilməsi

hüququn aydınlığı və təhlükəsizliyi üçün vacibdir. Səlahiyyətlər normal olaraq konstitusiya və yaxud qanunla müəyyən edilməlidir. Bu bənddə "qanun" sözünün istifadə edilməsinə baxmayaraq bəzi ölkələrdə parlamentin ələxsus da həyata keçirilməsi Avropa İttifaqı direktivlərindən irəli gələn detallar və ya məsələlərlə bağlı xüsusi səlahiyyətləri vermək üçün bəzi səlahiyyətlərini həvalə etməsi səmərəlilik baxımından arzuediləndir və bu o şərtlə reallaşdırıla bilər ki, parlament həvalə edilmiş səlahiyyətlərin həyata keçirilməsi üzərində yetərli nəzarəti saxlaya bilsin. Üstəlik Avropa İttifaqı ölkələri üçün istisna tətbiq edilir, çünki (Roma Müqaviləsinin 189-cu maddəsi ilə birbaşa tətbiq edilə) normativ sənədlər idarə orqanının istənilən səviyyəsində xüsusi tədbirin tətbiqi şərtini qoya bilər.

*2-ci bənd*

Qanunvericilik tərəfindən hakimiyyətin xüsusi səviyyələrinə həvalə edilən səlahiyyətlərdən başqa dövlət orqanlarının fəaliyyətinin digər ehtiyacları və ya imkanları ortaya çıxa bilər. Bu cür sahələrin yerli səviyyədə təsirləri olduqda və üzv dövlətlərin bir çoxunda mövcud olan ümumi səlahiyyətdən istisna edilmədikdə əhalinin ümumi rifahının təşviqi üçün tam hüquqlu fəaliyyət göstərən siyasi vahid kimi nəzərdə tutulmuş yerli özünüidarə orqanlarının bu sahələrdə öz təşəbbüslərini göstərmək hüququnun olması vacibdir. Bu cür hallarda onların fəaliyyət göstərə bilməsi üçün lazım olan ümumi qaydalar isə qanun tərəfindən müəyyən edilə bilər. Amma, bəzi üzv dövlətlərdə yerli özünüidarə orqanları fəaliyyətlərinə qanunvericilik tərəfindən icazə verildiyini göstərə bilməlidirlər. Xüsusi səlahiyyətlərdən əlavə yerli özünüidarə orqanlarına

mövcudluğu maddə 4-ün 2-ci bəndi ilə tanınan bir sistemdə böyük sərbəstlik verilə bilər.

*3-cü bənd*

Bu bənd dövlət səlahiyyətlərinin desantralizasiya edilməli olması haqqında ümumi prinsipdən bəhs edir. Bu prinsip Avropa Şurası kontekstində və xüsusən də Yerli özünüidarə orqanlarından məsul olan avropalı nazirlərin 1977-ci ildə Lissabonda keçirilmiş konfransının nəticələrində dəfələrlə təsdiq edilmişdir. Bu prinsipə görə, vəzifənin miqyası və təbiəti böyük olduğuna görə daha geniş ərazi vahidi tərəfindən həyata keçirilməsi tələb edilmədikdə və səmərəlilik və qənaət tələbləri olmadıqda, vəzifələr bir qayda olaraq yerli özünüidarə orqanlarının ən yerli səviyyəsinə həvalə edilməlidir. Amma bu müddəa funksiyaları təbiətlərinə və həcmlərinə görə sadəcə məhdud missiyaları həyata keçirə bilən yerli özünüidarə orqanlarına sistematik olaraq həvalə etməyin vacibliyini nəzərdə tutmur.

*4-cü bənd*

Bu bənd səlahiyyətlərin üst-üstə düşməsindən bəhs edir Aydın olması və səlahiyyətlərin tədricən zəifləməsinin qarşısını almaq üçün səlahiyyətlər bir qayda olaraq tam və müstəsna olmalıdır. Buna baxmayaraq bəzi sahələrdə müxtəlif səviyyəli əlavə fəaliyyətin görülməsi vacibdir və bu cür hallarda mərkəzi və ya regional hakimiyyət orqanlarının müdaxiləsinin aydın şəkildə ifadə edilmiş qanunvericilik müddəalarına uyğun olması lazımdır.

*5-ci bənd*

Yerli özünüidarə orqanlarının inzibati strukturunu və yerlərdəki vəziyyəti bilmələri sayəsində onlar yerli hakimiyyət orqanlarından yuxarıda olan orqanların səlahiyyətinə daxil olan bəzi funksiyaların icrası üçün adekvat orqan rolunu oynaya bilərlər. Amma səlahiyyətlərin həvaləsindən bu cür istifadənin yerli səviyyədə özünüidarə sahəsinə ifrat şəkildə müdaxilə etməməsi üçün yerli hakimiyyət orqanlarından yuxarıda olan orqanların həvalə edilmiş səlahiyyətlərin həyata keçirilməsi zamanı yerli vəziyyəti mümkün olduqca nəzərə almaları vacibdir. Amma vətəndaşlıq vəsiqələrinin verilməsi kimi bəzi funksiyalar üçün eyni qanunvericiliyin vacibliyinin yerli özünüidarə orqanının məhdudiyyətsiz səlahiyyətinə imkan vermədiyi faktı qəbul edilir.

*6-cı bənd*

1-5-ci bəndlər yerli özünüidarə orqanları ilə bağlı məsələlərdən bəhs etdiyi halda, 6-cı bənd həm yerli özünüidarə orqanları ilə həm də bu sahədən kənarda yerləşən amma bu orqanlar üzərində xüsusi təsirə malik məsələlərdən bəhs edir. Mətnə görə məsləhətləşmələrin xüsusiyyətləri və təqvimi yerli özünüidarə orqanlarının, xüsusən təcili hallarda fövqəladə vəziyyətlərin bu məsləhətləşmə tələbindən öndə gəldiyini qəbul edərək, təsir etmək üçün həqiqi imkana sahib olmasına şərait yaratmalıdır. Bu məsləhətləşmə aidiyyatı olan yerli özünüidarə orqanı və ya orqanları ilə birbaşa, bir çox yerli özünüidarə orqanının aidiyyatı olarsa onların birlikləri vasitəsilə dolayı yolla həyata keçirilməlidir.

*Maddə 5*

Digər yerli özünüidarə orqanları ilə birləşmə layihələri ən son halı olan ərazi hüdudlarının dəyişdirilməsi ilə bağlı təkliflər yerli özünüidarə orqanı və onun vətəndaşları üçün böyük əhəmiyyət daşıyır. Bir çox ölkələrdə yerli icmanın bu cür dəyişikliklərə qarşı veto hüququna sahib olmasını gözləməyin reallıqdan uzaq olması düşünülsə də onunla qabaqcadan birbaşa və ya dolayı yolla məsləhətləşmək zəruridir. Referendum bu cür məsləhətləşmə üçün adekvat prosedur ola bilər amma bu imkan bəzi ölkələrin qanunvericilikləri ilə nəzərdə tutulmamışdır. Qanunvericilik müddəalarının referendumdan istifadəni məcburi etmədikləri hallarda digər məsləhətləşmə formalarını nəzərdə tutmaq mümkündür.

*Maddə 6*

*1-ci bənd*

Bu bəndin mətni yerli özünüidarə orqanının və onun şurasının ümumi təşkilindən deyil onun inzibati xidmətlərinin təşkili üsulundan bəhs edir. Qanunvericilik müddəaları mərkəzi və regional səviyyədə bu təşkilin bəzi ümumi prinsiplərini müəyyən edə bilsə də yerli özünüidarə orqanları inzibati səmərəlilik baxımından onları yerli şəraitə uyğunlaşdırmaq üçün öz inzibati strukturlarını müəyyənləşdirə bilməlidirlər. Mərkəzi və regional qanunvericiliklərin məsələn bəzi kommissiyaların təşkili və ya bəzi inzibati vəzifələrin yaradılmasından bəhs edən bəzi xüsusi təlimatları mövcuddur. Amma bu müddəalar sərt təşkilati strukturları diktə etməmələri üçün məhdud şəkildə qalmalıdır.

*2-ci bənd*

İdarəetmə strukturlarının münasibliyindən əlavə, yerli özünüidarə orqanının səmərəliliyi üçün həyata keçirməli olduğu səlahiyyətlərə uyğun gələn keyfiyyətə malik işçini işə ala və işlədə bilməsi vacibdir. Bunun sözü gedən yerli özünüidarə orqanı tərəfindən yetərincə uyğun xidmət şərtləri təklifi edə bilməsi bacarığından böyük şəkildə asılı olması aydın görünür

*Maddə 7*

Bu maddədə bir tərəfdən seçilmiş təmsilçilərin üçüncü tərəfin fəaliyyəti üzündən missiyalarını həyata keçirməkdə maneələrlə üzləşməmələrini və digər tərəfdən də bəzi kateqoriyalara məxsus şəxslərin öz namizədliklərini irəli sürərkən tamamən maddi düşüncəyə görə əngəllənməmələrini təmin etmək məqsədini daşıyır. Maddi düşüncələrə səlahiyyətin həyata keçirməsi ilə bağlı çəkilən xərclərin həmçinin zərurət olduqda əldən çıxmış faydaya görə müvafiq pul kompensasiyası və tam ştatlı iş üçün seçilmiş yerli seçkili şəxslərin halında isə əmək haqqı və müvafiq sosial sığorta nəzərdə tutulur. Bu maddənin ruhuna uyğun olaraq mandatlarının sonunda tam ştatlı iş görən şəxslərin normal peşə həyatına yenidən inteqarasıyası üçün müddəaların qəbul edilə bilməsini gözləmək mümkündür.

*3- cü bənd*

Bu bənd yerli seçkili mandatın həyata keçirilməsi ilə uyğunsuzluq hallarının ad hoc qərarlara deyil sadəcə obyektiv hüquqi meyarlara əsaslanmalı olduğunu vurğulayır. Bu da uyğunsuzluq hallarını normal olaraq qanunla müəyyən edildiyini bildirir. Bununla belə, müvafiq

təminatlar verə bilən yazılmamış lakin dərin şəkildə kök salmış hüquqi prinsiplərin olduğu vurğulanmışdır.

*Maddə 8*

Bu maddə yerli özünüidarə orqanlarının fəaliyyətlərinin hakimiyyət orqanlarının digər səviyyələri tərəfindən nəzarətindən bəhs edir. Nə vətəndaşların yerli özünüidarə orqanlarına qarşı iddia qaldırmalarının mümkünlüyündən nə də Ombusdmanın və ya təftiş rolunu oynayan digər rəsmi orqanın təyini və ya fəaliyyətlərindən bəhs edir. Bu maddənin müddəaları hər şeydən öncə uzun zamandan bəri bəzi ölkələrdə mövcud olan "inzibati nəzarətlər" adlanan ənənə ilə normalda bağlı olan nəzarətin fəlsəfəsindən irəli gəlir. Bunlara hərəkət etmək üçün ilkin icazənin və ya aktların qüvvyə minməsi üçün təsdiqin alınması, yerli özünüidarə orqanının qəbul etdiyi qərarları ləğv etmək hüququ, hesablara nəzarət, və s öhdəliklər kimi praktikalar daxildir.

*1-ci bənd*

1-ci bənd himayənin adekvat qanunverici bazaya əsaslanmalı olduğunu qeyd edir və ad hoc nəzarət prosedurlarını istisna edir.

*2-ci bənd*

Nəzarət normal olaraq yerli özünüidarə orqanlarının fəaliyyətlərinin uyğunluğu deyil qanuniliyi məsələsi ilə məhdudlaşmalıdır. Səlahiyyəti həvalə edən yuxarı hakimiyyət orqanı tərəfindən vəzifənin necə yerinə yetirilməsinə nəzarətin edilməsini arzu edə bilməsi barəsində amma yalnız olmayan xüsusi istisna həvalə

edilmiş səlahiyyətlər halında nəzərdə tutulmuşdur. Amma bu sözü gedən yerli özünüidarə orqanına maddə 4-ün 5-ci bəndinə uyğun olaraq bəzi uyğunlaşma hüququnu icra etməyə mane olmaqla nəticələnməməlidir.

*3-cü bənd*

Bu mətn "proporsianallıq" prinsipindən ilham alır. Bu prinsipə görə inzibati nəzarət edən yuxarı orqan əlahiddə hüquqlarını icra edərkən arzu edilən nəticəni əldə etməyə imkan verərək yerli özünüidarə orqanına ən az müdaxilə edən metodu seçməlidir

İnzibati nəzarət və digər nəzarətlərdən sui-istifadəyə qarşı məhkəməyə müraciət maddə 11-də təsbit edildiyi üçün bu cür xüsusi vəziyyətlərdə müdaxilənin şərtləri və üsulları ilə bağlı müddəaların hazırlanması vacib hesab edilməmişdir.

*Maddə 9*

Əgər yerli özünüidarə orqanları missiyaları yerinə yetirmək üçün maliyyə vasitələrindən məhrumdurlarsa bəzi funksiyaları icra etmək hüququna sahib qurumun heç bir mənası olmur.

*1-ci bənd*

Bu bənd yerli özünüidarə orqanlarının xərclərlə bağlı prioritetlərini müəyyən etmək sərbəsliyindən məhrum olmamasını təmin etməyə çalışır.

*2-ci bənd*

Bəhs edilən prinsipə görə yerli özünüidarə orqanının ixtiyarında olan maliyyə qaynaqları və həyata keçirdiyi missiyalar mütənasib olmalıdır. Bu mütənasiblik ona həvalə

edilmiş xüsusi funksiyalar halında xüsusi əhəmiyyət kəsb edir.

*3-cü bənd*

Yerli vergi ödəyici və ya istifadəçi üçün xərclə bağlı göstərilən xidmətlərin üstünlüklərinin qiymətləndirilməsində siyasi seçimin edilməsi yerlərdə seçilmiş şəxslərin başlıca vəzifəsidir. Mərkəzi və ya regional qanunvericiliklərin vergi sahəsində yerli özünüidarə orqanlarının səlahiyyətlərinə qlobal məhdudyyətləri qoya bilmələri faktı qəbul edilmişdir. Amma onlar yerli səviyyədə siyasi səlahiyyətin səmərəli şəkildə həyata keçirilməsinə mane olmamalıdırlar.

*4-cü bənd*

Yerli özünüidarə orqanlarının bəzi vergiləri və ya digər maliyyə vəsaitləri təbiətlərinə və ya praktiki səbəblərə görə inflyasiya təsirlərinə və digər iqtisadi faktorlara az həssasdırlar. Xidmətlərin verilməsinin qiyməti iqtisadi faktorların inkişafından birbaşa təsirləndiyinə görə bu vergi və vəsaitlərdən ifrat dərəcədə asılılıq yerli özünüidarə orqanlarını çətin vəziyyətə sala bilər. Kifayət qədər dinamik gəlir mənbələrinin olması zamanı belə xərclərin artımı ilə qaynaqların artımı arasında avtomatik əlaqənin mövcud olmaması faktı qəbul edilir.

*6-cı bənd*

Yenidən bölüşdürülən vəsaitlər qanunla nəzərdə tutulmuş qaydada xüsusi meyarlara uyğun olaraq verildiyi zaman yerli özünüidarə orqanlarının rəyi sözü gedən qanunvericiliyin hazırlanması zamanı alınarsa bu bəndin müddəalarına riayət ediləcək.

*7-ci bənd*

Yerli özünüidarə orqanlarının sərbəstliyi baxımından qlobal subsidiyalar və ya hətta sektorlara görə verilən subsidiyalar xüsusi layihələr üçün verilmiş subsidiyalardan daha arzuedilənir. Xüsusi layihələr üçün olan bütün subsidiyaların vacib investisiyalardan söhbət getdiyində ümumi subsidiyalarla əvəz edilməsini gözləmək real deyil. Amma xüsusi layihələr üçün olan subsidiyalardan ifrat istifadə yerli özünüidarə orqanlarının prioritet xərclərin seçimində sərbəstliyini çox məhdudlaşdırır. Amma subsidiyaların təşkil etdiyi bütün vəsaitlərin hissəsi bir ölkədən digərinə görə əhəmiyyətli şəkildə dəyişir və xüsusi layihələr üçün olan subsidiyalar ilə ümumi subsidiyalar arasındakı yüksək əlaqə o zaman münasib hesab edilə bilər ki, subsidiyaların tamamı bütün gəlirlərin kifayət qədər az hissəni təşkil etsin.

Maddə 9.7-nin ikinci cümləsi xüsusi məqsədli subsidiyanın yerli özünüidarə orqanlarının özlərinin səlahiyyətləri sahəsində seçim sərbəstliyinə ziyan vurmamasına təminat verməyə çalışır.

*8-ci bənd*

Yerli özünüidarə orqanları üçün yatırımları maliyyələşdirmək məqsədilə kredit imkanlarından istifadə edə bilməsi vacibdir. Amma, maliyyələşdirmənin mümkün qaynaqları qaçılmaz şəkildə müxtəlif ölkələrdəki kapital bazarının strukturundan asılı olacaq və bu qaynaqlara çıxış şərtləri qanunvericilik tərəfindən müəyyən ediləcək.

*Maddə 10*

*1-ci bənd*

Bu bənd birgə həyata keçirilən layihələrlə səmərəliliklərini gücləndirmək və ya bir yerli özünüidarə orqanının səlahiyyətini aşan missiyaları həyata keçirmək məqsədilə yerli özünüidarə orqanları arasında işlək bazada mövcud olan əməkdaşlıqdan bəhs edir. Bu əməkdaşlıq yerli özünüidarə orqanlarının həmkarlar ittifaqı və ya federasiyası şəklində ola bilər. Amma qanunvericilik də bu cür orqanların yaradılmasının hüquqi çərçivəsini müəyyən edə bilər.

*2-ci bənd*

İkinci bənd məqsədləri 1-ci bəndin funksional düşüncələrindən daha ümumi olan və bir qayda olaraq regional və milli səviyyədə xüsusi tipə sahib bütün özünüidarə orqanlarını təmsil etməyə meyilli olan birliklərdən bəhs edir. Amma bu tip birliklərə daxil olmaq hüququ mərkəzi hökumətin bu birlikləri etibarlı müsahib kimi tanıması anlamına gəlmir.

Avropa Şurasının bu növ sənədində milli səviyyədə birliklərə daxil olmaq hüququnun bəzilərinin Avropa Şurasının Nizamnaməsi ilə müəyyən edilmiş məqsədlərə uyğun olan istiqamətlərdə Avropanın birliyinin təşviqi istiqamətində aktiv olaraq çalışan beynəlxalq birliklərə daxil olmaqla bağlı paralel hüquqla müşayiət edilməsi normaldır.

Amma maddə 10.2 hər bir üzv dövlətə qanunvericilik və digər yolların müəyyən edilməsi və prinsipin yerinə yetirilməsi sərbəstliyini verir

*3-cü bənd*

Digər ölkələrin yerli özünüidarə orqanları ilə fərdi şəkildə birbaşa əməkdaşlıq mümkün olmalıdır və bu əməkdaşlığın yolları da hər bir ölkədə qüvvədə ola biləcək hüquqi qaydalara riayət etməli və sözü gedən yerli özünüidarə orqanının səlahiyyətləri çərçivəsində qalmalıdır.

Ərazi icmaları və hakimiyyət orqanları arasında transsərhəd əməkdaşlıq haqqında Avropa Çərçivə Konvensiyasının (21 may 1980-ci il, STE n° 106) müddəaları əməkdaşlığın bəzi formalarının sadəcə sərhəd regionları ilə məhdudlaşmasa belə bu barədə çox məntiqlidir.

*Maddə 11*

Məhkəməyə müraciət edərək dedikdə yerli özünüidarə orqanının:

a. lazımi şəkildə təşkil edilmiş məhkəməyə çıxış, və ya

b. qanunla yaradılmış, müstəqil və hər hansı fəaliyyətin, unutma faktının, qərarın və ya digər inzibati aktın qanuna uyğun olub olmaması ilə və həmçinin verilən qərarla bağlı fikir söyləyə bilən bənzər orqana çıxış nəzərdə tutulur.

İnzibati qərarlar barədə məhkəməyə adi şəkildə şikayət etmənin mümkün olmadığı bir ölkədə prosedurun yenidən açılması adlandırılan qeyri-adi yolla məhkəməyə müraciət etməyin mümkün faktlarla vurğulandı. Əgər qərar qanunun açıq-aşkar yanlış şəkildə tətbiqinə əsaslanarsa bu cür məhkəmə yolundan istifadə etmə bu maddənin müddəalarına uyğundur.

*Maddə 12*

Xartiyanın 1-ci hissəsində göstərilmiş yerli özünüidarə prinsiplərinin ifadə tərzi Avropa Şurasının üzv dövlətlərində mövcud olan yerli özünüidarə orqanlarının hüquqi sistemlərinin və strukturlarının böyük müxtəlifliyi arasında tarazlıq yaratmağa çalışırdı. Ancaq, bəzi hökumətlərin Xartiyanın bəzi müddəalarını qəbul etməkdə konstitusiya və ya praktiki sahədə hələ də çətinliklərlə qarşılaşa bildikləri qəbul edilmiş faktdır.

Nəticədə, bu maddə Avropa Sosial Xartiyasında mövcud olan “məcburi nüvə” sistemini qəbul edir və Yerli özünüidarə haqqında Avropa Xartiyasının Tərəflərinin Xartiyanın 1-ci hissəsində olan otuz bəndindən minimum iyirmisinə riayət etmələrini və bunların da onunun ən azı on dörd əsas prinsipdən ibarət nüvənin bir hissəsi olmasını nəzərdə tutur. Lakin son məqsəd Xartiyanın bütün müddəalarına riayət edilməsi olduğu üçün Tərəflərin üzərlərinə imkanları olduqca yeni öhdəliklər ala bilmələri xüsusi olaraq nəzərdə tutulub.

*Maddə 13*

Prinsipcə Xartiyanın 1-ci hissəsində göstərilmiş şərtlər hər bir üzv dövlətdə mövcud olan yerli özünüidarə orqanlarının bütün kateqoriyaları və ya bütün səviyyələrinə aiddir. Onlar həmçinin mövcud olduqları yerlərdə regional özünüidarə orqanlarına da şamil edilə bilər. Lakin, bəzi regionların hüquqi forması və ya konstitusi statusu (xüsusən federativ dövlətlər) bunların yerli özünüidarə orqanları ilə eyni şərtlərə sahib olmasına mane ola bilər. Üstəlik, bir və ya iki dövlətdə kiçik ölçülərinə görə sadəcə ikinci dərəcəli

və ya məşvərətçi rol oynayan yerli özünüidarə orqanları kateqoriyası mövcuddur. Bu müstəsna halları nəzərə almaq üçün maddə 13 Tərəflərə bəzi yerli özünüidarə orqanlarını kateqoriyalarını Xartiyanın tətbiq sahəsindən çıxarmağa icazə verir.

*Maddə 14*

Bu maddə Xartiyanın hər bir Tərəfdə tətbiqinə nəzarəti asanlaşdırmağı və bunun üçün Avropa Şurasının Baş katibinə bütün zəruri informasiyanı göndərmək məcburiyyətini yaratmaq məqsədini daşıyır. Xartiyanın tətbiqinə nəzarətdən məsul olan xüsusi orqan olmadıqda qanunvericilikdə dəyişikliklər və ya Xartiyada təsbit edilmiş yerli özünüidarə üzərində vacib təsirlər yaradacaq digər tədbirlər barəsində Baş katibin məlumata sahib olması xüsusi əhəmiyyət daşıyır.

*Maddə 15-18*

Maddə 15-18-də bəhs edilən son müddəalar Avropa Şurasında imzalanmış konvensiya və sazişlərin son maddələrinin modeli üzərində qurulmuşdur.

“Yerli özünüidarə haqqında” Avropa Xartiyası özünüidarə orqanları və onlara seçilmiş şəxslərin hüquqlarını təmin edən ilk beynəlxalq məcburi müqavilədir. O, 15 oktyabr 1985-ci ildə Avropa Şurasının üzv dövlətləri tərəfindən konvensiya kimi imzalanmaq üçün açılmış və 1 sentyabr 1988-ci ildə qüvvəyə minmişdir.

16 oktyabr 2009-cu ildə yerli özünüidarə orqanlarının işlərində iştirak hüququ ilə bağlı əlavə Protokol Xartiyanın mətnini tamamladı. O, 1 iyun 2012-ci ildə qüvvəyə mindi.

Yerli və Regional Hakimiyyətlər Konqresi Xartiyanın və onun Əlavə Protokolunun prinsiplərini Avropa Şurasının onu imzalamış və ratifikasiya etmiş üzv dövlətlərində tətbiq edilməsini yoxlamaq vəzifəsini daşıyır.

Prems 008221

AZE

**www.coe.int**

Avropa Şurası qitənin insan hüquqlarının müdafiəsi sahəsindəki aparıcı təşkilatıdır. 27-i eyni zamanda Avropa İttifaqının üzvü olan 47 üzv dövlətdən ibarətdir. 47 üzv dövlətində yerli və regional demokratiyanın gücləndirilməsindən məsul olan Yerli və Regional Hakimiyyətlər Konqresi Avropa Şurasının bir təsisatıdır. İki palatadan (Yerli Hakimiyyətlər Palatası və Regionlar Palatası) və 3 komitədən təşkil edilən bu təsisat 150 000-dən çox region və bələdiyyə qurumlarını təmsil edən 648 seçilmiş nümayəndədən ibarətdir.